"Unibank" Kommersiya Bankı"
Açıq Səhmdar Cəmiyyətinin
İdarə Heyətinin
26.02.2026
tarixli Qərarı ilə təsdiq edilmişdir.

İdarə Heyətinin sədri v.m.i.e.

Heybət Qədirov

**"Leobank-dan Valideynlər üçün lotereya"**

**tirajlı STİMULLAŞDIRICI LOTEREYANIN ŞƏRTLƏRİ**

## 1. Ümumi müddəalar

1.1. Bu Şərtlər "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin Kollegiyasının 05.12.2022-ci il tarixli 21 nömrəli qərarı ilə təsdiqlənmiş "Stimullaşdırıcı Lotereyanın təşkili və keçirilməsi Qaydası"na əsasən keçirilir.

1.2. Şərtlər "Leobank-dan Valideynlər üçün lotereya" tirajlı stimullaşdırıcı lotereyanın (bundan sonra «lotereya» adlandırılacaq) təşkili və keçirilməsi ilə bağlı məlumatları əks etdirən rəsmi sənəddir.

1.3. Şərtlərdə istifadə olunan əsas anlayışlar "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş mənada başa düşülür və tətbiq edilir.

## 2. Lotereyanın təşkili və keçirilməsi qaydaları

2.1. Lotereyanın təşkilatçısının hüquqi ünvanı Bakı şəhəri, Nəsimi rayonu, 384-cü məhəllə, Rəşid Behbudov küçəsi 55, VÖEN 1300017201 olan və Azərbaycan Respublikası Mərkəzi Bankının 14 dekabr 2010-cu il tarixli, 73 saylı lisenziyası (08 yanvar 2003-cü il tarixli lisenziyanın yeni forması) əsasında fəaliyyət göstərən "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətidir (bundan sonra "Bank" və ya "Təşkilatçı" adlandırılacaq).

Əlaqə üçün: Təşkilatçının əməkdaşı olan Mustafazadə Aylin Fuad qızı

Telefon: +99412 541-33-33 daxili (7068) Mobil telefon nömrəsi: +994 55 411 84 44

2.2. Lotereya, "Leobank"-ın uşaq kartının sahiblərinin sayını artırmaq məqsədi ilə keçirilir.

2.3. Lotereyanın başlama tarixi: 27.04.2026

2.4. Lotereyanın son tarixi: 22.06.2026

2.5. Uduş fondunun oynanılması 1 tirajla həyata keçiriləcək.

2.6. Lotereya Azərbaycan Respublikasının ərazisində keçiriləcək.

2.7.Stimullaşdırıcı tirajlı lotereya müddətində "Leobank" mobil tətbiqinə daxil olaraq "Menyu" bölməsinə keçid edərək, aşağıda qeyd olunan şərtlərə riayət edən müştərilər lotereyada iştirak etmək şansını qazanacaqlar:

2.7.1. Müştəri, "Leobank" mobil tətbiqinin "Menyu" bölməsində "Uşaq kartı açın" funksiyası vasitəsilə (27.04.2026 – 22.06.2026) 57 gün müddətində "Leo Uşaq kartı" məhsulunu sifariş verməlidir.

2.7.2. "Leo Uşaq kartı" məhsulunun sifarişi aşağıdakı qaydada həyata keçirilir:

2.7.2.1. Müştəri "Leobank" mobil tətbiqində "Menyu" bölməsində yerləşən "Uşaq kartı açın" funksiyasını seçdikdən sonra uşaq kartı məhsulu barədə məlumatın və onun xüsusiyyətlərinin əks olunduğu müvafiq səhifəyə yönləndirilir.

2.7.2.2. Həmin səhifədə yerləşən "Uşaq kartını rəsmiləşdirin" düyməsini seçməklə müştəri, düymənin üzərində qeyd edilmiş şərt və qaydalarla razılaşdığını təsdiq edir. Müştəri bu şərt və qaydalarla əvvəlcədən tanış olmaq imkanına malikdir, o cümlədən:

– xidmət şərtləri və qaydaları;

– "Asan Finans" sisteminə razılıq ərizəsi.

2.7.2.3. Müştəri "Uşaq kartını rəsmiləşdirin" düyməsini seçəndən sonra, tətbiqdə onun uşağı və ya uşaqlarına dair məlumatların (adı və soyadı) əks olunduğu siyahı təqdim olunur. Müştərinin yalnız bir uşağı olduğu halda, həmin uşaq üzrə sifariş prosesi davam etdirilir. Müştərinin bir neçə uşağı olduğu halda isə, o, siyahıdan müvafiq uşağı seçərək kart sifarişi prosesini davam etdirir və məlumatları daxil edir.

2.7.2.3. Müştəri sifarişi təsdiqlədikdən sonra tətbiqdə onun uşaqlarına dair məlumatların (adı və soyadı) əks olunduğu siyahı təqdim olunur. Müştəri həmin siyahıdan uşaqlardan birini seçərək kart sifarişi prosesini davam etdirir və tələb olunan məlumatları daxil edir.

2.7.2.4.Sifariş prosesinin yekun mərhələsində müştəri kartın çatdırılma üsulunu seçir.

2.7.2.5. Müştəri tərəfindən bir neçə uşaq üçün kart sifariş edilməsi halında, birinci uşaq üzrə sifariş prosesi tamamlandıqdan sonra növbəti və digər uşaqlar üçün sifariş prosesi uşaqların siyahısının əks olunduğu ekrandan yenidən başlayır və hər bir uşaq üzrə ayrıca qaydada təkrarlanır.

2.7.3. Kart sahibi "Leo Uşaq kartı" məhsulunu əldə etdikdən sonra "Leobank" tətbiqində onu aktivləşdirməlidir;

2.7.4. 27.04.2026–22.06.2026 tarixləri arasında (hər iki tarix daxil olmaqla) müştəri "Leo uşaq kartı" məhsulunu sifariş etdikdən və kart sahibi tərəfindən kart aktivləşdirildikdən sonra lotereyada iştirak etmək hüququ qazanmış hesab olunur.

2.8. Tiraj 29 iyun 2026-cı il tarixdə, saat 14:00-da oynanılacaq.

2.9. Lotereyada iştirak etmək üçün "Leobank" istifadəçisi olmaq mütləqdir. Lotereyada iştirak etmək şansını qazanan müştərilər Bankın internet səhifəsinə (www.leobank.az) daxil olaraq lotereyanın şərtləri ilə tam şəkildə tanış ola bilərlər. Eyni zamanda, həmin internet səhifəsi vasitəsilə şərtləri çap edə və ya elektron poçt ünvanına göndərə bilərlər.

2.10. Lotereyada iştirak etmək şansını qazanmış müştərilərin eyniləşdirilməsi üçün 6 (altı) simvoldan (rəqəmdən) ibarət olan unikal elektron nömrələrdən istifadə olunacaq. Misal: 923248, 107267, 318317.

2.10.1.Hər kart sifarişi və aktivləşdirilməsi 1 (bir) iştirak şansı verir. İştirak şanslarının sayı, müştəri tərəfindən 7 (yeddi) yaşdan 17 (on yeddi) yaşadək (daxil olmaqla) uşaqlar üçün aktivləşdirilmiş kartların sayından asılıdır. "Uşaq kartının rəsmiləşdirilməsi" ekranına keçid zamanı müştəriyə bütün uşaqları üzrə məlumat (adı, soyadı) avtomatik olaraq təqdim olunur. Əgər uşaq 7 (yeddi) yaşdan kiçikdirsə, həmin uşaq üzrə kart sifarişinin mümkün olacağı tarix (yəni 7 yaşının tamam olacağı tarix) göstərilir.

2.10.2. Hər bir iştirak şansı əldə edildikdə, müştəriyə müvafiq push-bildiriş göndərilir. İştirak şanslarının sayı müştəri tərəfindən aktivləşdirilmiş kartların sayına bərabərdir.

2.11. Lotereyada iştirak şansı qazanan müştərilərə dair aşağıdakı məlumatlar Microsoft Excel proqramında hazırlanmış xüsusi siyahıya daxil edilir:

2.11.1.Lotereya iştirakçısının adı, soyadı, atasının adı, doğum tarixi;

2.11.2. Lotereya iştirakçısının şəxsiyyətini təsdiq edən seriyası, nömrəsi, FİN kodu;

2.11.3. Lotereya iştirakçısının mobil nömrəsi və elektron poçt ünvanı.

2.12. İştirakçı lotereyada iştirak etməklə fərdi məlumatlarının Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq işlənməsinə razılıq verir.

2.13. Lotereyanın uduş fondunu 1 paket (paket 3 nəfərlikdir, paketə «Disneyland Paris»-a giriş biletləri, oteldə 3 gecə qalma, uçuş biletləri daxildir) təşkil edir.

Daha ətraflı:

- 3 nəfər üçün Disneyland Paris 5* otelində 3 gecəlik qalma (səhər yeməyi daxil)
- «Disneyland Paris»-a giriş biletləri
- Bakı – Paris; Paris – Bakı "ekonom sinif" uçuş biletləri
- Vizanın əldə olunmasında dəstək.

2.14. Qalib tərəfindən uduşun alınması hüququnun üçüncü şəxslərə güzəşt edilməsinə yol verilmir.

2.15. Əldə edilən qeyri-pul uduşlarının pul ekvivalentinin ödənilməsinə yol verilmir.

2.16. Bank tərəfindən uduş fonduna əlavə vəsaitin qoyulması və həmin vəsaitin udulmamış hissəsinin geri götürülməsi nəzərdə tutulmamışdır.

2.17. "Leobank-dan Valideynlər üçün lotereya" tirajlı stimullaşdırıcı lotereya Bakı şəhəri, Nəsimi rayonu, 384-cü məhəllə, Rəşid Behbudov küçəsi 55 ünvanında keçiriləcəkdir.

2.18. Uduş fondunun daxilində Fransa Respublikasına daxil olmaq üçün müvafiq viza tələbi nəzərdə tutulduğuna və qalibin viza müraciətinə imtina edilməsi ehtimalı olduğuna görə Bank tərəfindən həmin qalib şəxsə alternativ uduş fondu təqdim olunacaq.

2.18.1. Alternativ uduş fonduna Türkiyə, Antalya şəhərində 3 nəfərlik, The Land of Legends otelində 3 gecəlik, 4 günlük hər şey daxil qalma və Bakı – Antalya; Antalya – Bakı "ekonom sinif" uçuş biletləri daxildir.

2.18.2. Müştəri 2.24-cü bənddə göstərilən müddətdə hər hansı səbəbdən uduşla bağlı Banka tələb irəli sürmədikdə, uduşdan imtina etmiş hesab edilir və uduş təşkilatçısının sərəncamında qalır.

2.19. Lotereyada iştirak "Unibank" Kommersiya Bankı" ASC-nin əməkdaşlarına və hüquqi şəxslərə şamil edilmir.

2.20. Uduş fondunun oynanılması, xüsusi kompüter proqramı "UniLotto" informasiya elektron sistemi vasitəsilə (bundan sonra "Proqram" adlandırılacaq) elektron püşkatma qaydasında həyata keçirilir. Lotereya "Unibank" Kommersiya Bankı" ASC-yə məxsus olan "Leobank"-ın https://www.instagram.com/leobank.az/ səhifəsində canlı olaraq yayımlanacaq.

2.21. Lotereyanın uduş fondunun qanunvericiliyə uyğun olaraq oynanılmasına nəzarət məqsədi ilə tiraj komissiyası və komissiyasının sədri təyin ediləcəkdir. Uduş fondunun oynanılmasına azı 1 (bir) iş günü qalmış tiraj komissiyasının üzvləri haqqında məlumat Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim olunur. Tiraj komissiyasının sədri müəyyən edilmiş tarixdə, vaxtda və yerdə toplaşaraq uduş fondunun oynanılmağa başlandığını elan edir. Eyni məqsədlərlə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin lotereyaların keçirilməsinə nəzarəti həyata keçirən müvafiq strukturunun əməkdaşları üçün lotereyanın keçirilməsində istifadə olunan xüsusi proqram təminatına giriş imkanı (istifadəçi adı və şifrə) Bank tərəfindən təqdim edilir.

2.22. Lotereyada oynanılan uduş fondunun adı elan olunur. Lotereyanın uduş fondunun oynanılması üçün tiraj komissiyasının sədri və ya üzvlərindən biri proqramın müvafiq düyməsini basmaqla işə salır və bir müddətdən sonra dayandırır. Proqram lotereyanın oynanıldığı tirajın uduş fondunun sayına uyğun olaraq təsadüfi eyniləşdirmə nömrələrini seçir. Bu nömrələr uduşlu sayılır. Uduşlu nömrə kompüterin monitorunda göstərilir və tiraj komissiyası tərəfindən bu barədə müvafiq qeydiyyat aparılır.

2.23. Bank uduş fondunun oynanıldığı tarixdən 5 (beş) iş günündən gec olmayaraq mediada və 7 (yeddi) iş günündən gec olmayaraq qaliblərə müvafiq uduşların təqdim olunması müddəti və qaydası barədə məlumat verir.

2.24. Uduşlu lotereya biletlərinin Bank tərəfindən qəbulu müddəti həmin lotereyanın (tirajın) uduş fondu oynanıldığı tarixdən etibarən 7 (yeddi) iş günündən gec olmayaraq başlanılacaq və 90 (doxsan) iş günü ərzində davam edəcəkdir. Qeyd olunan müddətdə lotereya qalibi şəxsiyyəti təsdiq edən sənədlə Təşkilatçının yerləşdiyi ünvana (Bakı şəhəri, Nəsimi rayonu, R. Behbudov küçəsi 55, məhəllə 384) yaxınlaşa bilərlər.

2.25. "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən lotereya iştirakçısı 18 yaşına çatmış, könüllü şəkildə lotereyada iştirak edən lotereya biletinin (ona bərabər tutulan digər məlumat daşıyıcısının) sahibidir.

2.26. Bank lotereyanın şərtlərinə edilmiş əlavələr və (və ya) dəyişikliklər haqqında məlumatı uduş fondunun oynanılması tarixinə azı 3 (üç) iş günü qalmış media vasitəsilə elan edəcəkdir.

## 3. Yekun müddəalar

3.1 Lotereyanın təşkili və keçirilməsi ilə əlaqədar digər münasibətlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

3.2 Bu şərtlər lotereya iştirakçılarının tanış ola bilməsi üçün "525-ci qəzet"də, www.leobank.az saytında açıqlanır və lotereyanın təşkilatçısı və iştirakçıları üçün məcburi qüvvəyə malikdir.

3.3 Qaliblərin siyahısı və onlar haqqında məlumat tirajdan sonra www.leobank.az saytında və "525-ci qəzet"də yerləşdiriləcəkdir.